## MÜKAFATLARI

### *"Şərəf nişanı" ordeni*




Ədəbiyyatın inkişafı sahəsində olan xidmətləri nəzərə alınaraq Rəsul Rza 17 aprel 1938-ci ildə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

### *"Azərbaycan SSR əməkdar incəsənət xadimi" fəxri adı*

“Azərbaycan SSR Əməkdar incəsənət xadimi” fəxri adı 25 mart 1928-ci ildə təsis edilmişdir. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən Azərbaycan mədəniyyətinin inkişaf etdirilməsi işində xüsusi fərqlənən incəsənət xadimlərinə verilirdi.




Rəsul Rza bu fəxri adı 17 iyun 1943-cü ildə almışdır.

### *"Lenin" ordeni*




Lenin ordeni — SSRİ-nin ən yüksək mükafatıdır. 6 aprel 1930-cu ildə SSRİ MİK-in fərmanı ilə yaradılıb.

Rəsul Rza 25 fevral 1946-cı il, 28 may 1970-ci il, 16 may 1980-ci illərdə bu mükafata layiq görülmüşdür.

### *"Stalin" mükafatı (3-cü dərəcə)*

Stalin mükafatı (Stalin adına mükafat) — SSRİ vətəndaşlarının elm və texnika, hərbi biliklər, ədəbiyyat və incəsənət, istehsalat işlərində metodların köklü təkmilləşməsi sahəsində əlmətdar fəaliyyətinə görə 1940–1954-cü illərdə verilirdi.



Rəsul Rza 1950-ci ildə yazdığı "Lenin" poemasına görə 1951-ci ildə mükafatı almışdır.

### *"Azərbaycan SSR xalq şairi" fəxri adı*




"Azərbaycan SSR xalq şairi" fəxri adı 23 yanvar 1956-cı ildə təsis edilmişdir. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən görkəmli şairlərə verilirdi.

21 may 1960-cı ildə Rəsul Rza bu fəxri ada layiq görülmüşdür.

### *Sosialist Əməyi Qəhrəmanı*

1938-ci ildən 1991-ci ilə qədər SSRİ-də əməkdə fərqlənməyə görə verilən ən ali fəxri addır.

16 may 1980-ci ildə Rəsul Rza bu fəxri adla təltif edilmişdir.

